# 10 Mart Milli Teatr Günüdür

# Müsəlman aləminin ilk peşəkar teatrı



**Milli teatr... Azərbaycan teatrının yaranma tarixindən danışarkən bəzi mühüm məqamları xatırlamaq lazım gəlir. Əvvəla, onu deyək ki, bütünlükdə müsəlman aləmində ilk dramaturgiyanın banisi Azərbaycanın dahi övladı Mirzə Fətəli Axundzadə olub. Bu mənada müsəlman aləmində ilk peşəkar teatr da Azərbaycanda yaranıb. İlk peşəkar aktyorlar burada yetişib, ilk qadın aktrisalar da məhz Bakı səhnəsində görünüb...**

Azərbaycan teatrının zəngin tarixinin hərtərəfli araşdırılması sahəsində müəyyən işlər görülmüşdür. Cəfər Cəfərov, Mehdi Məmmədov, Yaşar Qarayev, Qulam Məmmədli, Məmməd Arif, Qubad Qasımov, Mehdi Hüseyn, Məryəm Əlizadə, Ədilə Əliyeva, İlham Rəhimli və onlarca digər tədqiqatçı-teatrşünasların gərgin axtarışlarının, ciddi araşdırmalarının nəticəsi kimi meydana gələn fundamental əsərlər bu gün də dəyərlidir...

Teatrımızın tarixi 1873-cü il martın 10-da Bakıda M.F.Axundzadənin "Vəziri-xani-Lənkəran" komediyasının tamaşaya qoyulması ilə başlayır. Beləliklə də Azərbaycanda əvvəlcə dramaturgiya, sonra isə teatrın yaranması milli mədəniyyətimiz üçün mühüm tarixi hadisə olmaqla bərabər, Yaxın Şərqdə, bəlkə də daha geniş - müsəlman Şərqində qüvvətli bir əks-səda doğurmuşdu.

Azərbaycan teatrı bir sıra Şərq ölkələrində, xüsusən türkdilli xalqlar içərisində milli teatr hərəkatının doğuluşu və inkişafı üçün bir təkan rolunu oynamışdı. Çünki Azərbaycandan əvvəl Türkiyədə, İranda, ərəb ölkələrində professional dünyəvi teatr olmamışdır. Bu həqiqəti elm o zaman da, bu gün də təsdiq edir. Qulam Məmmədlinin "Azərbaycan teatr salnaməsi" kitabında gətirilən faktlar da bunun doğruluğunu göstərir. "Novoe obozreniye" jurnalında şərqşünas N.Qulakın məqaləsindən götürülən parçada deyilir: "Türklərin, ərəblərin və iranlıların tamaşaçıları maraqlandıran, Avropada olduğu kimi, dekorasiyalı, xüsusi paltar ilə dram aktyorlarının oynayacağı şəkildə teatrları yoxdur... müsəlman aləmində orijinal teatr yaratmaq bizim qafqazlı müsəlmanlara qismət olmuşdur...". "Qafqazlı müsəlmanlar" deməkdə müəllif bu cəhətdən də haqlıdır ki, 1873-cü ildə Bakıda göstərilən ilk milli tamaşa yalnız Azərbaycanda deyil, həmçinin Qafqazda yaşayan bütün azərbaycanlılar arasında teatr hərəkatının yayılmasına səbəb olmuşdur. Az sonra Ermənistanda, Gürcüstanda soydaşlarımızın teatrları yaranmağa başlamış və getdikcə inkişaf etmişdir. Orta Asiya ölkələrində, xüsusən Türkmənistanda azərbaycanlıların teatr qrupları yaranmışdı. Maraqlı burasıdır ki, Azərbaycan teatrının coğrafi sərhədləri çox geniş olmuş, hətta Rusiya və İranın fars əhalisi yaşayan bir çox şəhərlərində, kəndlərində Azərbaycan dilində tamaşalar göstərilmişdi. Təkcə "Nadir şah" əsəri Azərbaycandan kənarda 34 şəhərdə doğma dilimizdə oynanmışdı.

Azərbaycan teatrı ictimai-mədəni inkişafın güclü təzahürü idi. O zaman teatrların ən böyük hamiləri maarif xadimləri, müəllimlər, ədiblər və mühərrirlər idilər. Teatrımız çox güclü əllərdə olmuşdur. İstər Bakıda, istərsə də Gəncədə, Naxçıvanda, Şuşada, yaxud Azərbaycandan kənarda - Tiflisdə, Yerevanda, Aşqabadda - H.Mahmudbəyov, S.M.Qənizadə, N.Nərimanov, Y.Haqnəzərov, Ə.Haqverdiyev, N.Vəzirov və bu kimi tanınmış simalar öz fəaliyyətlərində teatrın ictimai faydasına verilən qiyməti əks etdirirdilər. Odur ki, teatrı yaşatmaq, gücləndirmək, yaymaq istəyi bütün çətinliklərə üstün gəlirdi.

Azəbaycan cəmiyyəti, onun qabaqcıl qüvvələri teatrın daha yüksək mərhələyə qalxması zərurətini tam məsuliyyəti ilə duyur, xalqın buna böyük haqqı olduğunu açıq söyləyirdilər. Ü.Hacıbəylinin Peterburqda, Ş.Məmmədovanın İtaliyada oxuması, F.Muxtarovanın konservatoriya təhsili alması, xüsusən H.Ərəblinskinin, M.A.Əliyevin, A.M.Şərifzadənin və bir çoxlarının teatr studiyalarında təhsil almağa can atması bu sahədə real addımlar atıldığını aydın göstərirdi.

Teatrşünas Adilə İsmayılova yazır: "Dünya teatrı tarixində "travesti" adlanan xüsusi bölgü mövcuddur. Bu, paltar dəyişilməsi ilə ifaçılıq priyomuna əsaslanır. Azərbaycan teatr tarixində də məhz tamaşanın məzmunu ilə əlaqədar kişilərin paltarlarını dəyişib səhnədə qadın rolu oynaması halları olub. Məsələn, 1905-ci il yanvarın 3-də Tağıyevin teatrında "Axşam-cəbri xeyir olar" vodevelində Məşədi Şaban rolunun ifaçısı Cahangir Zeynalov sonradan "Kaspi" qəzetinin yazdığına görə qadın rolunda da səhnəyə çıxmışdı. Qeyd edək ki, Cahangir Zeynalov Azərbaycanda realist səhnə sənətinin banilərindəndir".

Teatr tarixində qadın rollarının ifaçısı kimi yer alan Ağdamski soyadı ilə tanınmış məşhur aktyorun əsl adı Əhməd, soyadı isə Bədəlbəylidir. O, 1894-cü ildə Şuşa şəhərində doğulmuş, 1954-cü ildə vəfat etmişdir.

Qadın aktrisaların olmaması həm teatra, həm də dramaturgiyanın inkişafına mənfi təsir göstərirdi. Dramaturqlar teatrdakı vəziyyəti nəzərə alaraq qadın rolu olmayan əsərlər yazmaq məcburiyyətində qalırdılar. Azəbaycan teatrında milli aktrisa məsələsi çox ciddi problem kimi qarşıda dururdu. Bu səbəbdən çox halda qeyri-azərbaycanlı millətdən olan qadınlar səhnədə görünürdülər. Görkəmli dramaturqumuz C.Cabbarlı yazırdı: "Aktrisalar seçilmək üzrə deyil, arzu üzrə, istedad üzrə deyil, dil bilmələri üzrə səhnəyə çıxırdılar. Odur ki, türk səhnəsinə çıxan ilk aktrisalar rus, yəhudi qadınlardan ibarət idi".

A.Mislavskaya, L.Mixaylova, T.Kastorskaya, Z.Tamarina, O.Qruzinskaya, R.Damqarova, Y.Stepanova, Y.Olenskaya, M.Yermakova və digər səhnə ustaları teatrımızın inkişafındakı xidmətlərinə görə indi də böyük ehtiramla anılırlar.

Sonrakı illərdə Bakıda məktəblərdə qız tələbələrinin iştirakı ilə tamaşalar hazırlanırdı. Tələbə qızlar kişi rollarını da ifa edirdilər. "İrşad" qəzeti 1911-ci il 2 aprel tarixli sayında xəbər verirdi ki, həmin il mart ayının 25-də Bakıdakı H.Z.Tağıyev adına Qız Məktəbində qadınlar üçün qapalı tamaşa təşkil olunmuşdur. Əvvəlcə tələbə qızların iştirakı ilə "Elmin mənfəəti" adlı tamaşa göstərilmiş, sonra isə müəllimlərdən Minaxanım Məmmədzadə, Şərəbanı Şabanzadə və Nabat Nərimanova "Millətnamə" tamaşasında uğurla çıxış etmişlər.

Teatrımızın sonrakı inkişaf mərhələsində qadın aktrisalarımız milli səhnədə istər opera, balet, istərsə də dram və musiqili komediya teatrlarında sənətin ən yüksək zirvəsini fəth etdilər.

Mərziyyə Davudova, Fatma Qədri, Əzizə Məmmədova, Sona Hacıyeva, Fatma Muxtarova, Barat Şəkinskaya, Hökumə Qurbanova, Nəsibə Zeynalova, Leyla Bədirbəyli, Firəngiz Əhmədova, Qəmər Almaszadə, Leyla Vəkilova, Rəfiqə Axundova, Çimnaz Babayeva, Şəfiqə Məmmədova, Fidan və Xuraman Qasımova bacıları... kimi bənzərsiz sənətkarların teatr tariximizdə xüsusi yeri var.

Azərbaycan səhnəsinin qüdrətli sənətkarları H.Sarabski, H.Ərəblinski, Ə.Qəmərlinski, Sidqi Ruhulla, H.Hacıbababəyov, Cəlil Bağdadbəyov, Y.Nərimanov, Ələsgər Əsgərov və bu kimi aktyorların milli teatrımızın inkişafında əvəzsiz xidmətləri olmuşdur.

Azərbaycan teatrının gələcək inkişafı üçün adlarını mədəniyyət tarixinə qızıl hərflərlə yazdıran bu sənətkarların qoyub getdiyi irsdən faydalanmaq, onu zənginləşdirmək, yaşatmaq lazımdır. Axı, zamanın çətin sınaqlarına sinə gərib yaradıcı sənət bayrağını yüksəyə qaldırmağı bacaran Azərbaycan teatrının buna haqqı var!..

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

**Respublika.- 2022- ci il.- 10 mart.- S. 5.**